# Meliorasiya və su təsərrüfatı işçilərindən yüksək məsuliyyət tələb olunur



**Ölkəmizdə meliorasiya sahəsində mühüm layihələr reallaşdırılır, yeni infrastruktur obyektləri tikilib istifadəyə verilir. Əsasını ulu öndər Heydər Əliyevin qoyduğu bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkənin su və meliorasiya təsərrüfatının daha da möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Bu da ondan irəli gəlir ki, meliorasiya və su təsərrüfatı həmişə olduğu kimi, bu gün də ölkəmizin iqtisadiyyatında aparıcı rolunu qoruyub saxlayır və bu sahə regionların sosial-iqtisadi inkişafında mühüm əhəmiyyətə malikdir.**

Bu günlərdə regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı dövlət proqramının icrasının birinci ilinin yekunlarına həsr olunman konfransda qeyri-neft sektorunda kənd təsərrüfatının inkişafı prioritet sahə kimi dəyərləndirilmişdir. Prezident İlham Əliyev konfransda demişdir: “ Kənd təsərrüfatı sahəsində də ciddi islahatlar aparılır. Əminəm ki, bundan sonra da artım çox sürətli olacaq... Kənd təsərrüfatında artımla bağlı bəzi rəqəmləri də səsləndirmək istərdim. Beləliklə, barama istehsalı 25, pambıq 26, yumurta 9, günəbaxan 43, kartof 12, tərəvəz 12, bostan məhsulları 11, meyvə və giləmeyvə 9, yaşıl çay yarpağı 7, üzüm 20 faiz artmışdır. İxrac da əhəmiyyətli dərəcədə artıb”.

Söz yox ki, bu inkişafda meliorasiya və su təsərrüfatı işçilərinin də xidmətləri böyükdür. Son illər dövlət başçısı qarşımızda mühüm vəzifələr qoyub. Biz də çalışırıq ki, bu vəzifələri uğurla həyata keçirək. Meliorasiya sahəsində həyata keçirilən böyük layihələr kənd təsərrüfatının su ilə təchizatını xeyli yaxşılaşdırmışdır.

Meliorasiya və su təsərrüfatının daha da təkmilləşdirilməsi ərzaq təhlükəsizliyinin təmin olunmasında da həlledici rol oynayır. Mürəkkəb iqlim və ağır torpaq şəraitinə malik respublikamızda kənd təsərrüfatı məhsullarının istehsalı əsasən suvarılan torpaqlarda olduğundan bu sahələrin daimi suvarma və kollektor-drenaj şəbəkələri ilə təchiz edilməsi vacibdir.

“Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadənin rəhbərliyi ilə bu sahədə görülən işlər danılmazdır. Qeyd etmək lazımdır ki, ötən illər Göyçay rayonunda qazanılmış nailiyyətlər bu il də uğurla davam etdirilir. Keçən il Göyçay çayının məcrasında mühüm işlər aparılmışdır. Kanallarda 474 kilometr lildəntəmizləmə işləri görülmüşdür. Üç ədəd qurğuda təmizləmə və təmir işlərini yekunlaşdırmışıq. Qarayazı beton kanalında əsaslı təmir işləri aparılmışdır. Əlbəttə, bunlar hamısı dövlət vəsaiti ilə reallaşdırılmışdır.

Dövlət başçısının ölkə melioratorlarının əməyinə və bu sahənin roluna verdiyi yüksək qiymət melioratorlarımızı səylə işləməyə və daha böyük nailiyyətlər qazanmağa sövq edir.

***Şakir ƏHMƏDOV,***
***Göyçay Rayon Suvarma Sistemləri İdarəsinin rəisi***

Xalq qəzeti 2020.- 7 fevral.- S.11.